AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

QƏRAR

“Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 555 (Cild I); 2024, № 2, maddə 236, № 5 (II kitab), maddə 575, № 7, maddə 910; 2025, № 4 (II kitab), maddə 424, № 7, maddə 697; 2026, № 1, maddə 78; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 5 oktyabr tarixli 324 nömrəli və 15 oktyabr tarixli 342 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı”nın “Arxeoloji abidələr” bölməsinin 22-ci və 23-cü bəndləri aşağıdakı redaksiyada verilsin:

22.	Azıx mağara düşərgəsi	paleolit dövrü	Xocavənd rayonu, Azıx kəndi
23.	Tağlar mağara düşərgəsi	paleolit dövrü	Xocavənd rayonu, Böyük Tağlar kəndi

2. Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı” üzrə:

2.1. “Bağ-park, monumental və xatirə abidələri” bölməsinə aşağıdakı məzmunda 483-1-ci bənd əlavə edilsin:

483-1.	Quba Soyqırımı Muzeyi və simvolik məzarlıq	2012-2013-cü illər	Quba şəhəri, Nəriman Nərimanov küçəsi, 1A

2.2. “Arxeoloji abidələr” bölməsi üzrə:

2.2.1. “Astara rayonu” hissəsinə aşağıdakı məzmunda 830-1-ci bənd əlavə edilsin:

830-1.	Əlişa qala kompleksi	e.ə. IV - e. XVI əsrlər	Alaşa kəndi

2.2.2. “Quba rayonu” hissəsinə aşağıdakı məzmunda 1399-1-ci bənd əlavə edilsin:

1399-1.	Xatirə abidəsi – kütləvi məzarlıq	1918-ci il	Quba şəhəri, Nəriman Nərimanov küçəsi, 1A

3. Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - “Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı” üzrə:

3.1. “Memarlıq abidələri” bölməsi üzrə:

3.1.1. “Gəncə şəhəri” hissəsinə aşağıdakı məzmunda 3990-1–3990-3-cü bəndlər əlavə edilsin:

3990-1.	Yaşayış evi	XIX əsr	Hacıkənd qəsəbəsi
3990-2.	Yaşayış evi	XIX əsr	Heydər Əliyev prospekti, 353
3990-3.	Yaşayış evi	XIX əsr	İsrafil Məmmədov küçəsi, 50

3.1.2. “Sumqayıt şəhəri” hissəsinə aşağıdakı məzmunda 3993-1-ci və 3993-2-ci bəndlər əlavə edilsin:

3993-1.	Hacı Məcid hamamı	XVI əsr	Corat qəsəbəsi, Cəfər Cabbarlı küçəsi
3993-2.	Hacı Əmrulla hamamı	XVII əsr	Corat qəsəbəsi, Xanməmməd Məhərrəmoğlu küçəsi, 44A

3.1.3. “Qazax rayonu” hissəsinin 4533-cü bəndi ləğv edilsin.

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, “ 20 ” “ noyabr ” 2026-cı il

№ 387